**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

"Təsdiq edirəm:"
Tədrisin təşkili və təlim texnologiyaları
üzrə prorektor v.i.e__________ dos.Zaur Məmmədov.
"___" __________ 2025-ci il

## Fənn sillabusu

**İxtisas:** 050510 Ekologiya
**Fakultə:** Təbiyyat
**Kafedra:** "Fizika, kimya və biologiya"
**I. Fənn haqqında məlumat:**
**Fənnin adı:** Məişət ekologiyası.
**Fənn proqramı:** (LDU, Biologiya və ekologiya kafedrasının 15.05.2025-ci il tarixli (protokol № 10) iclasında müzakirə olunub məqsədəuyğun hesab edilmişdir).
**Kodu :** İPF-B18
**Tədris ili:** NTMB (2025-2026), semestr: I.
**Tədris yükü :** Cəm 50 saat. Auditoriya saatı - 20 (10 saat mühazirə, 10 saat seminar).
**Tədris forması:** Qiyabi.
**Tədris dili:** Azərbaycan dili.
**AKTS üzrə kredit:** 5 kredit
**Auditoriya :**
**Saat:**
**II.Müəllim haqqında məlumat:**
Adı, soyadı, elmi dərəcəsi : *Ağayev Qorxmaz Kazım oğlu. biol.f.d. dos.*
Məsləhət saatı:
E-mail ünvanı: **qorxmaz-1976@mail.ru**
Kafedranın ünvanı: Lənkəran şəhəri, H.Z.Tağıyev küçəsi, 118.

**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
**Əsas:**
1. Əlizadə Ə. M. Ekologiya və ətraf mühitin mühafizəsi. Bakı: Elm, 2013, 248 s.
2. Əliyev Ə.M. Ekologiyaya giriş. Bakı: Maarif, 2005, 280 s.
3. Cəfərov Z.H. Ekologiya və təbii ehtiyatlardan istifadə. Bakı: Nurlan, 2010, 198 s.
4. Qasımova S.Ə. Ekologiya və həyat fəaliyyətinin təhlükəsizliyi. Bakı: ADPU nəşriyyatı, 2016, 210 s.
5. Səfərov Ə.Ə. Tətbiqi ekologiya. Bakı: BDU nəşriyyatı, 2011, 224 s.
6. Süleymanov R.T. Ekologiya və həyat fəaliyyəti. Bakı: Elm və Təhsil, 2017, 230 s.

**Əlavə:**

7. Мильков, Ф. Н.Экология человека и его среды обитания. Москва: Высшая школа, 2001. 320 с.
8. Ясвин, В. А. Экология жизнедеятельности: Учебное пособие. Санкт-Петербург: Питер, 2004. 256 с.
9. Çepel Z. Çevre ve İnsan: Ekolojik Bir Yaklaşım. Ankara: Nobel Yayıncılık, 2012. 296 s.
10. Mamedov N.M. Environmental problems and sustainable development. Bakı: ADNSU, 2018. 192 s.

**IV. Perekvizitlər:** Fənnin tədrisi üçün öncədən prerekvizit fənn yoxdur.
**V. Korekvizitlər:** Eyni vaxtda digər ekoloji fənlərin tədris olunması əhəmiyyətlidir.
**VI. Fənnin təsviri və məqsədi:** Məişət ekologiyası fənni insanın gündəlik məişət fəaliyyəti çərçivəsində ətraf mühitə təsir mexanizmlərini, bu təsirlərin azaldılması strategiyalarını və ekoloji tarazlığın qorunması prinsiplərini sistemli şəkildə öyrənən multidissiplinar elmi sahədir. Bu fənnin tədrisi tələbələrdə məişətdə istifadə olunan təbii və texnogen resursların — su, enerji, qaz və digər materialların — ekoloji cəhətdən optimal, davamlı və səmərəli istifadəsi ilə bağlı

CamScanner ilə skan edilib

fundamental bilik və bacarıqların formalaşdırılmasına yönəldilmişdir. Məqsəd tələbələrdə ekoloji düşüncə tərzinin inkişaf etdirilməsi, ekoloji təhlükəsizlik və davamlı inkişaf prinsiplərinin nəzəri və praktik səviyyədə mənimsənilməsi, həmçinin ekoloji davranışların formalaşdırılmasıdır. Fənn çərçivəsində tullantıların ekoloji idarə olunması, potensial ekoloji risklərin qiymətləndirilməsi və minimallaşdırılması, həmçinin yaşıl texnologiyaların və ekoloji innovasiyaların tətbiqi sahəsində müasir elmi biliklər təqdim olunur. Bu yanaşma nəticəsində tələbələr öz gündəlik fəaliyyətlərində ekoloji məsuliyyət prinsiplərinə əsaslanan qərarlar qəbul edən, ətraf mühitin davamlılığını təmin edən fərdlər kimi yetişdirilir. Bundan əlavə, məişət ekologiyası fənni tələbələrə milli və beynəlxalq səviyyədə qəbul edilmiş ekoloji qanunvericilik aktları, normativ hüquqi sənədlər, ekoloji standartlar və etik kodekslər barədə sistemli məlumat verir, bu da onların həm nəzəri, həm də praktik biliklərinin daha geniş və fundamental əsaslara söykənməsini təmin edir. Beləliklə, tələbələr yalnız ekoloji biliklərlə zənginləşməklə qalmır, həm də müasir ekoloji çağırışlara cavab verə bilən, ekoloji maarifləndirmədə aktiv rol oynayan vətəndaş kimi formalaşırlar.

**VII. Davamiyyətə verilən tələblər:**

Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Qiymət meyarları aşağıdakılardır:

*-10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*

*-9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*

*-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*

*-7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*

*-6 bal- tələbənin cavabı əsasən düzgündür.*

*-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*

*-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*

*- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*

*- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.*

*-0 bal- suala cavab yoxdur.*

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri smestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

***Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)***

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51-baldan aşağı | qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə Universitetin daxili nizam–intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcəkdir.

CamScanner ilə skan edilib

X.Təqvim planı: Muhazirə 10 saat, seminar məşğələ 10 saat.

| № | Keçirilən mühazirə, seminar, məşğələ, laboratoriya və sərbəst mövzuların məzmunu | Saat | | Tarix | |
|---|---|---|---|---|---|
| | | müh | sem | müh | sem |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1. | **Mövzu 1: Məişət ekologiyası fənninin predmeti, məqsədi və vəzifələri.**<br>**Plan:**<br>1. Məişət ekologiyası anlayışı, fənnin predmeti və əsas tədqiqat sahələri.<br>2. Məişət ekologiyası fənninin formalaşma zərurəti və inkişaf mərhələləri.<br>3. Məişət ekologiyasının məqsədi və əsas vəzifələri.<br>4. Məişət fəaliyyətlərinin ətraf mühitə təsiri və ekoloji xüsusiyyətləri.<br>5. Məişət ekologiyasının digər ekoloji elmlərlə qarşılıqlı əlaqəsi<br>6. Müasir texnologiyalar, ekoloji risklər və innovativ yanaşmaların məişət ekologiyasına təsiri.<br>**Mənbə [1,3,4,5,6,7,9,10]** | 2 | 2 | | |
| 2. | **Mövzu 2: Məişətdə istehlak olunan resurslar və onların ekoloji təsiri.**<br>**Plan:**<br>1. Məişət ekologiyasında istifadə olunan əsas resurs növləri.<br>2. Məişətdə su resurslarının istifadəsi və israfın ekoloji nəticələri.<br>3. Məişət şəraitində elektrik və istilik enerjisinin istehlakı: ekoloji baxış və təsirlər.<br>4. Məişət fəaliyyətlərində resursların səmərəsiz istifadəsinin ətraf mühitə təsirləri.<br>5. Məişət ekologiyasında resursların səmərəli idarə olunması və ekoloji dayanıqlı alternativlər.<br>**Mənbə [3,4,6,7, 8,9,10]** | 2 | 2 | | |
| 3. | **Mövzu 3. Məişət tullantıları və onların idarə olunması.**<br>**Plan:**<br>1. Məişət tullantıları anlayışı və onların növləri.<br>2. Məişət tullantılarının xüsusiyyətləri və ekoloji təsirləri.<br>3. Ev təsərrüfatlarında tullantıların çeşidlənməsi.<br>4. Məişət tullantılarından yenidən istifadə və təkrar emal texnologiyaları.<br>5. Məişət ekologiyasında innovativ və alternativ tullantı idarəetmə üsulları.<br>6. Məişətdə tullantılarının düzgün idarə olunmamasının nəticələri.<br>**Mənbə [2,3,4,5,6,7,8,9]** | 2 | 2 | | |
| 4. | **Mövzu 4: Məişət kimyası və ekoloji təhlükələr.**<br>**Plan:**<br>1. Evdə istifadə olunan kimyəvi maddələrin insan sağlamlığına və | 2 | 2 | | |

CamScanner ilə skan edilib

**X.Təqvim planı:** Muhazirə 10 saat, seminar məşğələ 10 saat.

| № | Keçirilən mühazirə, seminar, məşğələ, laboratoriya və sərbəst mövzuların məzmunu | Saat | | Tarix | |
|---|---|---|---|---|---|
| | | müh | sem | müh | sem |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1. | **Mövzu 1: Məişət ekologiyası fənninin predmeti, məqsədi və vəzifələri.**<br>**Plan:**<br>1. Məişət ekologiyası anlayışı, fənnin predmeti və əsas tədqiqat sahələri.<br>2. Məişət ekologiyası fənninin formalaşma zərurəti və inkişaf mərhələləri.<br>3. Məişət ekologiyasının məqsədi və əsas vəzifələri.<br>4. Məişət fəaliyyətlərinin ətraf mühitə təsiri və ekoloji xüsusiyyətləri.<br>5. Məişət ekologiyasının digər ekoloji elmlərlə qarşılıqlı əlaqəsi<br>6. Müasir texnologiyalar, ekoloji risklər və innovativ yanaşmaların məişət ekologiyasına təsiri.<br>**Mənbə [1,3,4,5,6,7,9,10]** | 2 | 2 | | |
| 2. | **Mövzu 2: Məişətdə istehlak olunan resurslar və onların ekoloji təsiri.**<br>**Plan:**<br>1. Məişət ekologiyasında istifadə olunan əsas resurs növləri.<br>2. Məişətdə su resurslarının istifadəsi və israfın ekoloji nəticələri.<br>3. Məişət şəraitində elektrik və istilik enerjisinin istehlakı: ekoloji baxış və təsirlər.<br>4. Məişət fəaliyyətlərində resursların səmərəsiz istifadəsinin ətraf mühitə təsirləri.<br>5. Məişət ekologiyasında resursların səmərəli idarə olunması və ekoloji dayanıqlı alternativlər.<br>**Mənbə [3,4,6,7, 8,9,10]** | 2 | 2 | | |
| 3. | **Mövzu 3. Məişət tullantıları və onların idarə olunması.**<br>**Plan:**<br>1. Məişət tullantıları anlayışı və onların növləri.<br>2. Məişət tullantılarının xüsusiyyətləri və ekoloji təsirləri.<br>3. Ev təsərrüfatlarında tullantıların çeşidlənməsi.<br>4. Məişət tullantılarından yenidən istifadə və təkrar emal texnologiyaları.<br>5. Məişət ekologiyasında innovativ və alternativ tullantı idarəetmə üsulları.<br>6. Məişətdə tullantılarının düzgün idarə olunmamasının nəticələri.<br>**Mənbə [2,3,4,5,6,7,8,9]** | 2 | 2 | | |
| 4. | **Mövzu 4: Məişət kimyası və ekoloji təhlükələr.**<br>**Plan:**<br>1. Evdə istifadə olunan kimyəvi maddələrin insan sağlamlığına və | 2 | 2 | | |

CamScanner ilə skan edilib

| | | | | | |
|---|---|---|---|---|---|
| | ətraf mühitə təsiri.<br>2. Qapalı məkanlarda kimyəvi çirklənmə: hava, səthlər və toz vasitəsilə yayılan təhlükələr<br>3. Məişət kimyası məhsullarının tərkibindəki toksik birləşmələr və onların ekoloji riski.<br>4. Təmizlik və gigiyena vasitələrinin davamlı istifadəsinin uzunmüddətli ekoloji fəsadları.<br>5. Məişət kimyasında alternativ ekoloji təhlükəsiz məhsullar və onların üstünlükləri.<br>6. Məişət kimyəvi tullantılarının idarə olunması və ekoloji təhlükələrin azaldılması yolları.<br><br>**Mənbə [1,4,5,6,7, 8,9,10]** | | | | |
| 5. | **Mövzu 5: Ekoloji mədəniyyət və yaşıl həyat tərzi.**<br>**Plan:**<br><br>1. Məişət ekologiyasında ekoloji şüurun formalaşması və rolu.<br>2. Yaşıl texnologiyalar və ekoev anlayışı: məişətdə ekoloji dayanıqlı həllər.<br>3. Ailədə və cəmiyyətdə ekoloji maarifləndirmənin məişət səviyyəsində əhəmiyyəti və metodları.<br>4. Yaşıl həyat tərzi və onun məişət davranışlarına təsiri.<br>5. Məişət kontekstində ekoloji mədəniyyətin formalaşmasında təhsil və medianın təsiri.<br>6. İctimai təşəbbüslərin və QHT-lərin məişət ekologiyasında rolu.<br><br>**Mənbə [1,3,4,5,6,8,9,10]** | 2 | 2 | | |
| | **Cəmi:** | **10** | **10** | | |

**XI.Fənn üzrə tələblər, tapşırıqlar:**

Məişət ekologiyası sahəsində təhsil alan tələbələr ətraf mühitlə insanın gündəlik məişət fəaliyyəti arasındakı qarşılıqlı əlaqələri elmi əsaslarla araşdırmaq üçün sistemli təhlil və qiymətləndirmə bacarıqlarını mənimsəməlidirlər. Onlar məişətdə istifadə olunan su, enerji, qaz və digər resursların ekoloji səmərəli idarə olunması üzrə nəzəri və praktiki biliklər əldə etməklə yanaşı, tullantıların azaldılması və idarə olunması sahəsində müasir metod və texnologiyaları tətbiq etməyi bacarmalıdırlar. Tələbələr ətraf mühitin monitorinqi və məişət səviyyəsində ekoloji göstəricilərin qiymətləndirilməsi üçün əsas elmi metodları mənimsəyərək, məişət fəaliyyəti nəticəsində yaranan ekoloji problemləri aşkar edə və onların həlli yollarını təklif edə bilməlidirlər. Fənn həmçinin tələbələrə ekoloji standartlar, normativlər və məişət ekosistemlərinin qorunması ilə bağlı hüquqi tənzimləmə sənədləri barədə biliklər verir. Bu biliklər əsasında tələbələr davamlı inkişaf prinsiplərinə əsaslanan ekoloji davranış modellərini formalaşdırmalı və məişət ekologiyası sahəsində elmi tədqiqat və praktik fəaliyyətlərdə fəal iştirak etməlidirlər.

**XII. Fənn üzrə təlimin nəticələri:**

Tələbələr məişət fəaliyyəti və ətraf mühit arasındakı qarşılıqlı əlaqələri dərindən anlayacaq və ekoloji tarazlığın qorunmasının əhəmiyyətini qiymətləndirəcəklər. Məişətdə istifadə olunan təbii resursların – su, enerji, qaz və materialların ekoloji cəhətdən səmərəli və davamlı idarə olunması prinsip və metodlarını tətbiq edə biləcəklər. Tullantıların idarə olunması, azaldılması və yenidən emalı sahəsində müasir yanaşmalar və texnologiyalar barədə praktik biliklər əldə edəcəklər. Ətraf mühitin monitorinqi və məişət səviyyəsində ekoloji göstəricilərin qiymətləndirilməsi üçün elmi metodları tətbiq etmək bacarığı qazanacaqlar. Məişət ekosistemlərinin qorunması üçün mövcud olan normativ hüquqi sənədləri, ekoloji standartları və etik davranış qaydalarını biləcəklər. Ekoloji təhlükəsizlik, sağlam həyat və davamlı inkişaf prinsiplərinə əsaslanan ekoloji məsuliyyətli davranış və qərarvermə

CamScanner ilə skan edilib

bacarıqlarını inkişaf etdirəcəklər. Məişət ekologiyası ilə bağlı problemlərin diaqnostikası və onların həlli üçün sistemli elmi yanaşmalar tətbiq edə biləcəklər. Fənn üzrə əldə etdikləri bilik və bacarıqları real həyatda, xüsusilə fərdi və ictimai məişət sahələrində ekoloji davamlılığı təmin etmək üçün uğurla istifadə edə biləcəklər.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV: Kollekvium sualları:**

1. Məişət ekologiyası anlayışı, fənnin predmeti və əsas tədqiqat sahələri.
2. Məişət ekologiyası fənninin formalaşma zərurəti və inkişaf mərhələləri.
3. Məişət ekologiyasının digər ekoloji elmlərlə qarşılıqlı əlaqəsi
4. Məişət ekologiyasında istifadə olunan əsas resurs növləri.
5. Məişətdə su resurslarının istifadəsi və israfın ekoloji nəticələri.
6. Məişət şəraitində elektrik və istilik enerjisinin istehlakı: ekoloji baxış və təsirlər.
7. Məişət tullantılarının xüsusiyyətləri və ekoloji təsirləri.
8. Ev təsərrüfatlarında tullantıların çeşidlənməsi.
9. Məişət tullantılarından yenidən istifadə və təkrar emal texnologiyaları.
10. Məişət ekologiyasında innovativ və alternativ tullantı idarəetmə üsulları.

**XV. Fənn üzrə imtahan sualları:**

1. Məişət ekologiyası anlayışı, fənnin predmeti və əsas tədqiqat sahələri.
2. Məişət ekologiyası fənninin formalaşma zərurəti və inkişaf mərhələləri.
3. Məişət ekologiyasının məqsədi və əsas vəzifələri.
4. Məişət fəaliyyətlərinin ətraf mühitə təsiri və ekoloji xüsusiyyətləri.
5. Məişət ekologiyasının digər ekoloji elmlərlə qarşılıqlı əlaqəsi.
6. Müasir texnologiyalar, ekoloji risklər və innovativ yanaşmaların məişət ekologiyasına təsiri.
7. Məişətdə istehlak olunan resurslar və onların ekoloji təsiri.
8. Məişət ekologiyasında istifadə olunan əsas resurs növləri.
9. Məişətdə su resurslarının istifadəsi və israfın ekoloji nəticələri.
10. Məişət şəraitində elektrik və istilik enerjisinin istehlakı: ekoloji baxış və təsirlər.
11. Məişət fəaliyyətlərində resursların səmərəsiz istifadəsinin ətraf mühitə təsirləri.
12. Məişət ekologiyasında resursların səmərəli idarə olunması və ekoloji dayanıqlı alternativlər.
13. Məişət tullantıları anlayışı və onların növləri.
14. Məişət tullantılarının xüsusiyyətləri və ekoloji təsirləri.
15. Ev təsərrüfatlarında tullantıların çeşidlənməsi.
16. Məişət tullantılarından yenidən istifadə və təkrar emal texnologiyaları.
17. Məişət ekologiyasında innovativ və alternativ tullantı idarəetmə üsulları.
18. Məişətdə tullantılarının düzgün idarə olunmamasının nəticələri.
19. Evdə istifadə olunan kimyəvi maddələrin insan sağlamlığına və ətraf mühitə təsiri.
20. Qapalı məkanlarda kimyəvi çirklənmə: hava, səthlər və toz vasitəsilə yayılan təhlükələr
21. Məişət kimyası məhsullarının tərkibindəki toksik birləşmələr və onların ekoloji riski.
22. Təmizlik və gigiyena vasitələrinin davamlı istifadəsinin uzunmüddətli ekoloji fəsadları.

CamScanner ilə skan edilib

23. Məişət kimyasında alternativ ekoloji təhlükəsiz məhsullar və onların üstünlükləri.
24. Məişət kimyəvi tullantılarının idarə olunması və ekoloji təhlükələrin azaldılması yolları.
25. Məişət ekologiyasında ekoloji şüurun formalaşması və rolu.
26. Yaşıl texnologiyalar və ekoev anlayışı: məişətdə ekoloji dayanıqlı həllər.
27. Ailədə və cəmiyyətdə ekoloji maarifləndirmənin məişət səviyyəsində əhəmiyyəti və metodları.
28. Yaşıl həyat tərzi və onun məişət davranışlarına təsiri.
29. Məişət kontekstində ekoloji mədəniyyətin formalaşmasında təhsil və medianın təsiri.
30. İctimai təşəbbüslərin və QHT-lərin məişət ekologiyasında rolu.

İPF-B18 "Məişət ekologiyası" fənninin sillabusu 050510 "Ekologiya" ixtisası (proqramları üzrə) tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Sillabus "Fizika, kimya və biologiya" kafedrasının 15 may 2025-ci il tarixli iclasında müzakirə edilərək təsdiq edilmişdir (protokol № 10).

**Fənn müəllimi:** **b.f.d., dos. Q.Ağayev.**

**Kafedra müdiri v.i.e.:** **b.e.n., dos. R.Şəmmədov.**

CamScanner ilə skan edilib